
Ətrafı dərk edək
Pəncərədən baxanlar

Kitabın İlk Nəşri 2010-cu İl.

PƏNCƏRƏDƏN BAXANLAR

# PƏNCƏRƏDƏN BAXANLAR

*1.*

*Yaxşılığı sonsuz , nemәti bol olan Allahın adı ilә .*

*Sirli bir pәncәrә qarşısındayam : mәn olduğum otaqda sanki , yüksәkdә qoyulmuş çәrçivәdәn gәlәn işıqla ruhumun isindiyini hiss edirәm vә pәncәrәni xatırladan bu çәrçivә göydәn saçılan işığı әks etdirmәsi ilә özünәmәxsusdur ~ Mәn dә özümәmәxsus bir şәkildә müqәddәs Allahın verdiyi nemәt olan ` işıqlar saçan nurdan duyduğumu bildiyim fikirlәrә әsaslanaraq әks etdirmәk istәyirәm . Bunu istәmәklә kifayәtlәnmәdәn bir sualımla da sizlәrә müraciәt edirәm : “ 23 pәncәrәdәn hansına daha yaxın olsanız özünüzü xoşbәxtliyin pillәlәriylә qalxan hesab edәrdiniz ? “*

*Haşiyә __ Qızım Lalәzar xanımın bu yazımı yazmağa başladığım gecәnin sәhәri mәnim nә etdiyimdәn xәbәri olmadan ~ möcüzәli şәkildә olayla ~ yazıb göstәrdiyi şe`ri var . Onu sizlәrә tәqdim edirәm :*

*Evdə bir çıraq yandı ,
Hər tərəf işıqlandı !
Otaq nura boyandı ..,
Ürəyimiz anladı ~

İşıq gözəllik verir ,
Təbiəti dindirir .
İşıq olmasa əgər
Qəlbimiz də “əriyər” .

*İnsanlar təbiətə baş vurduqca özlərini sanki bir daha sınayırlar . Onların uğura çatdığı , tənəzzülə uğradığı , hətta ən adi məqamlarında belə , hiss etdiklərini özləri üstün bildikləri əsaslarla tutuşdurur , qarşılaşdırır , onlar arasındakı həddi müəyyən etməyə cəhd göstə - rirlər . Budur ~ hər birimiz əvvəldən axıra keçdiyimiz həyat yollarında gah eniş , gah da yoxuşla irəliləyi - rik . Adamlarda dərrakə mövcuddur ki , biz də hər kəsin fikrinin düzgün olub-olmadığını yalnızca , o fik - ri Qurana söykəməklə ayırd edə bilərik . Və*

** Siz də fəal olun * - deyirəm . b a ş l a y a q*

*Quran , 5 / 48 ~*

” Biz , Quranı sənə haqq olaraq , özündən əvvəlki Kitabı ( ilahi kitabları ) təsdiq edən və onu qoruyan olaraq endirdik . Sən onların arasında Allahın nazil etdiyi

( Quran) ilə hökm et. Sənə gələn haqdan ayrılıb onların nəfslərinin istədiyinə uyma . Sizin hər biriniz üçün bir qanun və bir yol təyin etdik . Əgər Allah istəsəydi , sizi tək bir ümmət edərdi .

*Lakin bu müxtəliflik , Allahın verdikləri ilə sizi imtahan etməsi üçündür . Elə isə ,* ***yaxşı işlər etməkdə*** *bir – birinizi ötməyə çalışın ( bir - birinizlə* ***yarışın*** *) .*

Hamınızın axır dönüşü Allahadır . Allah aranızda ixtilaf doğuran məsələlər barəsində sizə xəbər verəcəkdir ! ”

*Biz iman gətirənlərə qoşulub Cənnətə daxil olmaq üçün həmişə bu dünyada yaxşı ilə pisin , zəif ilə ondan güclünün , özümüzlə başqalarının arasında olan fərqlərin İlahinin əzmiylə yarandığını dərk etməli , cəhətləri üstələmək istəyənlər tərəfindən burada bəzi halların yaşanacağını da bilməliyik . Bunu öyrənməklə ətalətə uymayaraq həyatsevər olmalı , bir olan Allahdan başqa heç kimdən qorxmamalıyıq . Bizim ümidlərimizin doğrulması yalnız , Allahın bizə verdiyi xeyir - bərəkətlərlə tamamlanır . Biz də , paklığa doğru saf diləklərlə yaxınlaşa bilərik . Unutmamalıyıq ki , müxtəlif insanlar özlərini təbiətin müxtəlif çalarları*

*qarşısında tam fərqli aparırlar . Bu dünyada bol - bol nəfəs alanlar öz hiss və əməlləri ilə başqalarına da təsir verirlər . İnsan təmizliyiylə fərqlənən təbiətdə özünü daha xoşbəxt hiss edir ki , bu , ilk növbədə onun duymaq dərəcəsindəki mərtəbənin müəyyənliyindən asılıdır .*

*" Yaşayanlar bəzən təbiətin və cəmiyyətin sirləri qarşısında acizdirlər ." - deməklə , özümüzün nələrisə götür – qoy etmək imkanlarımıza bağlanaq ~*

*Gəlin indi hər birimizin Allahın qulları olduğumuzu qəbul etməklə ürəyimizin nicat tapmasına imkan verək . Belə ki , ancaq Allah yolunda - ixlasla yaşasaq həyatımızı boş yerə keçirtməmiş oluruq . Bunu insan övladı ömrünün sonuna kimi beləcə dəyişməz bilmə - lidir ))) İnsanlar Allaha sevgi və güvənləriylə , Onun buyurduqlarına olan hörmətləriylə öz , başqa həyat - ların qurulub , dağılmasında cila ola bilir . Yaxşı hal~ Quranda olan hər bir incəliyi başa düşməyə çalışan – ların , onda olan Allahın bildirdiyi hökmləri , öyüd – nəsihətləri və peyğəmbərlərin həyatlarından olan misallardan götürdükləri ibrətləri yaşamlarına*

*yerləşdirənlərin atdıqları addımlar sayının artmasıdır. Əks olan hal isə , əhatəsində olan gözəlliklərin qədrini bilməkdən məhrum , yenilikləri saxtalaşdırıb , aldığı nəfəsin dəyərini bilməyənlərin sayının olmasıdır ~ onlar qarşıya çıxartdıqları ziyanları ödəməyə qadirdilərmi ............................................... ??!!! ...............................................*

*Hər bir insan müsəlman olaraq yaradılırsa da , anlayışlıya iman qazanmaq üçün ilk olacaq vasitə budur - ürəklə : " Mən Təsdiq Edirəm Ki , Allahdan Başqa İlah Yoxdur Və Mən Təsdiq Edirəm Ki , Mu - hamməd Allahın Qulu Və Rəsuludur " – deməlidir . Əks həqiqət isə budur ki , insan öz nəfsinə uyduqca onun ağılı azalır və şeytan tələsi olan zəlalətə düşür .*

*Təsəvvürümüzdəki sonsuzluğun iki : "+" ( müsbət) , "-" (mənfi) tərəflərini Quranda olan insan əxlaqına , şüuruna keyfiyyət verib , onu formalaşdırıb axtarış – larla tapılacaq sirlər və bizə çox sadə olaraq çatdırılanlardan sezirik . Çəkəcəyim misallar üzrə bir - birinə zidd olanlardan biri (pis) o birisindən (yaxşı – dan) aldığı işığa arxa çevirdiyindən öz kölgəsini görəsi*

*olur . Ağıl sahibi olanlar çalışaraq bu kölgəni ötüb Allahın məmnunluğunu qazananlar içərisində yer almalıdırlar __ Hər bir adam böyüyənə qədər ətrafın - dakılardan " şükür" sözünü dəfələrlə eşitmiş olur ki , sonralar da , o , dinclik gətirən bu sözün təsiri altından çıxmamaq üçün xoşbəxtliyi qiymətləndirib , bunu Allahın bir lütfü kimi qəbul etməlidir . Vurğulayaq ki , şükür ~ təkcə dillə deyil , əməllərimizlə də edilməlidir .*

*Çətinliyi dəf edərkən bizlər qarşımıza çıxanlara düzgün yanaşmalıyıq . İncə düyünləri aça bilmək əzmi ilə olanlardan bir neçəsini burda sadalayım : 1 . Insanlar Allahın yaratdığı varlıqlara hörmət və mərhəmət bəsləmələri ilə pillələrdə dərəcələnir . 2 . Hamı öz dəyərini artırmaq üçün çalışmalı , özü qarışıq ətrafdakı adamların da , yaxşıların - yaxşısı sırasına çatması üçün cəhdlər etməlidir . Məs. : Allaha heç bir şərik qoşmaq olmaz , ata – anaya yaxşılıq etməli , kasıblıq üzündən uşaqları öldürmək olmaz , açıq və gizlin pis işlərə yaxın düşməmək , Allah adından yalan söylə - məmək , Allahın haram buyurduğu cana qıymamaq , yetimin malına dəymənək ~ onu qorumaq və o , həddi*

*- buluğa çatandan sonra - ağılı kəsəndə onu özünə qaytarmalı , zülm etmək olmaz , ölçüdə və çəkidə düzgün olmalı , heç kəsi çəkə biləcəyindən artıq yük – ləməmək , ata-ananın , özünün , qardaşının , ən ya - xınlarının əleyhinə olsa belə varlı – kasıba uymadan ədalətli şahidlik etmək , namazlarını müti vəziyyətdə huşu içində ( dediyini anlayaraq ) qılmağa cəhd et – mək , hər gün anladığın dildə müyəssər olduğu qədər Quran oxumaq ( Allahı zikir etmək ) və haqqı başqalarına da çatdırmaq , boş şeylərdən bütünlüklə üz çevirməli , zəkat verməli , son nəfəsinə qədər malıyla , canıyla cihad etməli , Allahın ayələrini gəlirlə dəyişmək olmaz , qəzəbini udub yaxşılıq etmək , bolluqda da , qıtlıqda da yoxsullara Allah yolunda xərcləmək - sədəqə verəndə öz nəfsinin çəkdiyi , sev – diyin , yaxşı olan şeylərdən ver , günahlarına görə hər şeydən Uca Allahdan tez - tez bağışlanma diləməli , tövbə edib Allaha tərəf dönməli – pis iş tutduğunu anlayan kimi tövbə etmək ( tövbə ~ etdiyin pislikdən peşiman olub onu yaxşılıqla əvəz etmək və bir daha etdiyin pisliyi təkrarlamamaq istəyində olmaqdır )*

*lazımdır , peyğəmbərləri bir – birindən ayırmamaq , cahillər söz atdıqları zaman , yalnızca " Salam " - deyərək vüqarla onların yanından keçməli , zalımlara qəti surətdə meyl etməmək , kinlənməmək , həsəd etməmək , yalan danışmamaq , ifrat etməmək , iftira atmamaq – fitnə qətildən daha şiddətlidir , oğurluq etməmək , lovğalanmamaq – Allah heç bir özündən razını sevməz , öz etdiklərinə görə sevinmək olmaz , Allahın sənə halal olan nemətlərlə sevinməli , ayıb yerlərini örtmək , rüşvət almamalı , qeybət etməmək , tənə vurmamaq , başqasında eyib axtarma , söz gəzdirməmək , başqasının gizli yönlərini araşdırma – maq , yaxşılığı başa vurmamaq , yetimə yaxşı davran – malı , malını sağa - sola səpələməmək , zina etmək ol – maz , gözəl sözlər danışmalı , danışanda səs tonunu yüksəltməmək , sözə qulaq asıb rasional olanına uy – maq , sələm almamaq (bu , Allaha və Peyğəmbərə qarşı müharibəyə girişməkdir) , fal , içki , qumar , sehirdən uzaq olmalı , Allaha ibadətdə səbirli olmaq və hər gün ölümü xatırlamalı , pis söz söyləmək də olmaz _ yalnız zülm olunmuş kəslər müstəsnadır_ və s.*

*İradə azadlığımızı , ağılımızı və vicdanımızı yönlən - dirməklə yaranan əqidəmizin emalı kimi baxış prizmamızdan da asılı olaraq həyat sınağında əməllərimizdən və niyyətlərimizdən şaxələnən iman və inamlar üzərində pillələrlə dərəcələnirik .*

*~ QURAN , 65 / 2, 3. **

*Kim Allaha qarşı gəlməkdən çəkinsə*
*Allah ona hər çətinlikdən bir çıxış yolu əta edər və*
*ona gözləmədiyi yerdən ruzi verər .*
*Kim Allaha təvəkkül etsə ( güvənsə )*
*Allah ona kifayət edər .*

*Allahı tez - tez xatırlayan özünü tez tapmış olur , yəni bu insan yaranmışların içində öz mövqeyində baxımlı birisidir . Onun bildiyi isə öz çərçivəsindən kənara çıxmayaraq qazandığı imanı itirmək qorxusundan həyatda süzgəcdən keçirmək qabiliyyətinə fikir vermə - yin tutarları olacaqdır . Şeytanlar insanlara hər tərəf - dən yaxınlaşa bilər və bu Qiyamətə qədər davam edəcək . Təəssüflər olsun ki , bəziləri hətta ən əsas qanuna maraq göstərmir , ən asan olanı bir qanun*

*kimi qəbul edərək yaşayırlar . Asan olan dedikdə bunu nəzərdə tuturam : hər baş verəni bir alın yazısı kimi bilib , ölçənlər batilə uyaraq mövcuddurlar . Hər şey əvvəlcədən Allah tərəfindən müəyyənləşdirilib . Yəni Uca Allah dünyanı yaradarkən " bir ssenari yazıb " , ancaq rolları paylamayıb – tanıdıb . İnsanları da öz fitrətinə uyğun , ağıl , vicdan və iradə azadlığı olduq-ları ilə yaradır . Allahını sevən insan Ona ibadət edə - rək aydın məcraya gəlməlidir ki , bunu belə açıqlama - lı olacam : Uca Allah bizim hər birimizin mənəviy - yatımızı yönəltdiyimiz " - " və " + " qiymətlər dəyər - lərinə sərf etdiyimiz çalışqanlıqla onu arzuları - mızdan həyata keçirməyimizə qədər hər olanı bilir .*

*` HƏR ŞEY ƏVVƏL – AXIR ALLAHA QAYIDAÇAQDIR )))*

*İnsanın qazanacağı uğur onun nəfsinin , ağılının tutarı ilə bağlı olub zəhmət çəkməkdə olan səylərinin qiy – mətidir . Bunun da incəlikləri vərəq - vərəqdir ~ başlıca olanlardan biri də budur ki , özünü başqalarının yerinə qoymaqla , gərək hissləri tapdalamayasan .*

*Sözsüz ki , adam özünü Allahın lənətinə gəlmişlər sırasına keçəcəyindən çox qorxmalıdır . Ağıllı olan –*

*lar belə bir şeydən müdafiə olunmaq üçün şeytanın ürəklərdə aldadıcı arzular yaratdığıyla pisliyə doğru baş alan yolu Allahın göstərdiyi istiqamətə dəyisməlidir . Burada qazanılan uğur üçün sərf edi – lən güc Allah tərəfindən bəxş edilən gözəl nemətlərlə əvəzlənir . Şükürlə tapılan dinclik isə bizim sevincimizdir.*

*Valideyinlər uşaqlarına Quran oxumaları üçün şərait yaradıb , öz köməkliklərini əsirgəməməlidirlər . Çünki Yaradan Allah Quranda buyurur ki , Quranla öyüd – nəsihət verilsin . Uşaqların da , böyüklərin də aldadıcı olmayan nəsihətlər duymasına həmişə ehtiyacları var*

*İnsan atacağı hər addımının haqqa uyğun olub – olmadığını araşdıraraq , sorğulayaraq , müqayisə və mühakimə edərək bilər və beləliklə də vicdanının formalaşmasına icazə verər , davamlı olacağı hər amalda Allahın ona verdiyini - ömrünü sərf edər .*

*Bəzi adamlardan uğuru ləngidən sözlər kimi olan təsirlər hər birimizə məlumdur , məs : ” namaz qıl , ya qılma - fərqi yoxdu , insanın yaxşısı onun ürəyiylədir “*

*və s . Axı biz bilirik ki , hər bir şeyin öz mənası var . Huşu içində qılınan namaz insanı təmizləyir və ən başlıcası isə , namaz Yaradanın bizə bir əmridir . Səhvəmsə , onda elə danışanlar belə bir suala cavab versinlər görək , kiminsə ürəyi peyğəmbərin __ Allahın salamı olsun __ ürəyindən daha təmizdirmi ki , hamı – nın dərs götürəcəyi həzrəti Muhamməd __ Allahın salamı olsun __ ayaqları şişənə qədər namaz qılırdı , onlarsa qılmasa da olar ??!*

*Bütün şəxsiyyətlərin yaratdıqlarını , uğurlarını Allah nizamlayır, yəni onlara bunu nəsib edir . Birisi nəsə kəşf edirsə , sonra da öyünürsə - bununla səhv edir. Çünki bunların hamısı Allahın bir lütfüdür* Hər hansı olaylarda təkəbbürsüz gəzməli , sadəliyimizlə daha da çox qazanmalıyıq . UĞURLARIN SONSUZU MÖMINLƏRİN QƏLƏBƏSİ OLACAQ !!! Bunu hakimlərin hakimi , hər şeydən Uca Allah Özü bizlərə vəd edib .*

*Qayıdaq yuxarıdakı söhbətimizə . O insan necə ürəyini yüksək qiymətlərlə ölçür , necə özünü düz adam hesab edir ki , o , yaxşılarla bir gedilən nurlu yolu bəyənmir ? O , Allahın buyurduqlarını əsas tutaraq diqqətli olarsa*

*dincliyini tapmış olar . Namaz qılmaq istəməyən birisi düşünmürmü ki , Allaha yaxın olmaq üçün ən gözəl fürsətdən istifadə etmir ? Yəni yaxşı hesab etdiyi , əslində , ona təsirin vermiş olan şeytanın aldatmasıdır . Namaza gəlmək istəyənlərin hər biri çətinliklərə qarşı güclü iradə ilə dayanıb nədən başlayacaqlarını fikirləşərkən bunu bilməlidirlər ki , şeytanın vəsvəsəsi - nə uysalar , mübarizə aparmasalar çox qəlb qıracaq ziyanlara düşərlər .!. Həyat yoluna davam edərkən insan gözəl olan dualarla ( dua həm də əməllədir ~ bacardığını edib Allaha yönəlmək ) , Allaha təvəkkül edərək ( güvənərək ) , Ona pənah aparmaqla ( ümid - lərini Allaha bağlamaqla ) yanaşı Allahla bağladığı əhdlərini pozmamağı da , özünə xasiyyət etməlidir .*

*Bura qədər qəlbən mənimlə razı olanlara bu ruhla : " Sizlərin hər birinizə , nizam - intizam üzrə qurulan dünyada Haqqa tabe olmaqla xoşbəxtlik meyarınızla davam edərkən başqalarının da işlərinin rəvanlığına çalışın ." - deyirəm .*

*İlahinin bizim hər birimiz üçün sınaqlar olan gön - dərdiyi şanslar qarşısında dilimiz lallaşır , amma hə -*

*min anlarda nəfsimizlə ağlımız sanki bir - biriylə söhbətə girişir . Sözü keçən tərəfin mövqeyində insan ya amana tuş olur , ya da imana gəlməklə uzlaşır . Təkamül təlimindəki “ ipi” deyil , hisslərə nəzarətlə Allahın hüzurunda toplaşacağımız Qiyamət gününə qədər olan yolu düyünlərdə bilməliyik . Yeri , Göyü və onların arasındakıları altı gündə ~ dövrdə ~ yaradan Yaradanımızın yenilməz qüdrətinə zərrə qədər şüb – hələrdənsə böyük dağıntıların törəndiyinin şahidiyəm .*

*.......... Bunu yalnız ziyana uğrayanlar törədirlər ..........*

*Belələri ölürkən özlərini ötə bilən qorxu ilə zədələ - nirlər və həmin zədə onlara aldadıcı vədlər verən*

*` şeytanların hesabına törənir .*

*Şeytanlardan qorunmağı müxtəlif yollarda axtaran - lar bəzi fırıldaqçı ünsürlərdən istifadə edir , düşdük - ləri dərinlikdən çıxmaq üçün ip ucu axtarırlar . Bu da , onların iradələrini yanlışlıqlarla zəiflədir , daha*

*sonra isə günahkarlara çevrilirlər .*

*` **Quran , 5 / 44** ~ Allahın nazil etdiyi ilə hökm et - məyənlər , əlbəttə , kafirdirlər ! // ` **Quran , 7 / 40 ...***

*Yenilməz İntiqam Sahibi Olan Allah Nisa Surəsinin 137 – ci Ayəsində Belə Buyurub ~ Əvvəlcə İman Gətirib , Sonra Kafir Olan , Sonra İman Gətirib Yenə Də Kafir Olan , Sonra Da Küfrünü Artıran Kəsləri Allah Heç Vaxt Bağışlayan Və Doğru Yola Yönəldən Deyildir ! ~*

Unutma : Xoşbəxtliyi __ Allahın Sevgisini __
itirmək qorxusu həmişə normaldır

*Yaşayan dünyaya bir dəfə gəldiyini bilməlidir . İkinci qayıdış da , Qiyamət günü baş verəcəksə yaxınla – rından birini itirəndə özünə qəsd etməyə qadir olanlara ərz edirəm : bu dünyada müvəqqətiyik və o birinə də ~ Cənnət və Cəhənnəmə əbədi olan gediş varsa , itirdiklərimizin intizarı ilə nə özümüzə , nə də ətrafdakılara qarşı pis təsirlər verməməliyik . Hisslərindəki naxışlardan bəzək alan hər bir bəndə bütünlüklərini gecə də , gündüz də tayı – bərabəri olmayan gözəl Allahı xatırlamaqla qoruya bilərlər . İNSAN ÖZÜNƏ ZÜLM EDƏNLƏRDƏNDİR ! Odur ki ,*

*o , Allahın nuruna çox ehtiyacı olduğunu sonra deyil ,*

*` əvvəldə xatırlamalıdır : )))*

*Yaşamaq üçün insana hər tərəf maraqlıdır, hətta onun həyata keçirmədikləri də . Oruc tutanlar Ramazan ayı ərəfəsində bir ay rahatlıqla davam edir , başqa vaxt – larda isə bunun üçün nəfslərinə çətinliklə güc gəlirlər. Deməli , insan Allahın sevgisini itirmək qorxusuyla yaşadığı vaxtdan fərqli olaraq nəyəsə çatmaq amalını*

*qalan vaxtlarda zəncirləyə də bilir .*

*Hər qavramaq istədiklərimizə cavab tapmaq biz insanları çətinliklərlə sınayar. Unutmamalıyıq : zəncir halqaları kimi birləşərək uzanan suallar sonda belə*

*yenə də , cavabsız deyil : " Allah bilir "!*

*Onu da bilməliyik ki , Allahın bildiyini heç kəs bilmir `*

*Arayıb axtardığımız özümüzdən fərqlənə bilərsə də , insan övladı özünü və özgələri zənnlərlə gümanlara açılan qaranlıq pəncərələr qarşısında qoymamalıdır !.!*

*Belə şeylər bizim keçəcəyimiz yollarda çaşqınlıq ya - radır deyə , həyatımızdakı olacaqlara marağımızı*

*azaltmayaq , İlahi nuru ilə işıqlana biləcək gələcək qurmağa çalışaq . Amin `*

*İndi isə , qarşımızda duran pəncərələrdən mənzərələr , ya daha nələr görünür sə özümüzün müxtəlif vəziy – yətlərdəki hallarımızla haqlanaq ~~~*

*2. Hansı fəsildə pəncərə önündə daha rahatsan ? Necə havaya uyğunlaşa bilirsən ? ~ Adam balacalığından hansı "havaya" daha çox uyğunlaşan bədənini tanıyır və belə havanı gətirən fəsili sevir , onu gözləyir . Bu , insanlarda ağılın , qabiliyyətin və duyğuların rənga - rəngliyiylə bağlıdır . Bəli , kainatda hər bir şey nizam - intizamlı quruluşlu yaranışa əsaslanır . Ondakı olan gozəlliyin sirrini dərk etmək üçün insana çox illər verilir. Ən sadə adlandırdığımız adam böyük ürək sahibi , ən yüksək bildiyimiz isə zəif insan duyğulu ola bi – lər . Ancaq yaxşı və pis xislət sahiblərini bir - birindən ayırmaq istəsək , böyüklüyə çatdıran mənaviyyatla alçaqlığa aparan mənəviyyatsızlığı üzləşdirə bilərik . Bunlar bir-birinə zidd olan , ancaq bir-birindən dərs*

*götürə biləcək tərəflərdir . Allah insanı şeytanla birlikdə Yerdə məskun edəndən insan eybəcərliklərlə qarşılaşır və hər an da ehtiyac duyduğu gözəlliyi mənimsəmək üçün yollar axtarır . Bəzi zəiflədilmiş axtarışçı rənglərin çalarlarını itirir ... Sevgini gozəllik – lərin açarı kimi dəyərləndiririksə , niyə biz onu axtararkən ətrafda çox zənn etməklə özümüzü iti – rək ?! İfrata çatdıranların içindənmi onu seçək ?!*

*3. Özün hər dərəcədə dözümlüsənmi ? ~ İnsan ətraf mühitlə təmasdaykən müxtəlif məqamlarda özünü müxtəlif cür aparır , müxtəlif münasibətlər aşkarla – nır . Həqiqət də budur ki , illərlə tanıdığın bir insan – dan qəflətən tam fərqli bir münasibət görürsən . Elə ona gorə də , insan heç vaxt nəyəsə tam bələd oldu – ğunu sübut edə bilməz ~ heç kəs məcbur etmədiyi halda qayıtmaq istədiyi yolu axıra qədər gedənlər də var . Bunu qismət adlandırırlar. Söz yox ki , qisməti verən Uca Tanrıdır və hər kəsə də , öz ürəyinə görə bəxt açılır . Bax : Quran , 2 / 284 .*

*Yaşamında bəndəni xəyallarla dolu seyr qanadlan - dırır . " Qanadlanarkən " özümüzü mələklərdən fərqli tutmalıyıq . Çünki mələklər yalnız Allahın əmrlərini yerinə yetirirlər , biz isə şeytan adlı düşmənlə öm – rümüzün axırına qədər qarşılaşaraq sınaqlardan keçirik*

*Və qan töküb torpaqlarımızı zəbt etmək istəyən düşmənə qalib gəlmək , mövlamızın buyurduqlarına hörmətlə yanaşan - Quranı oxuyub onu həyatına daşıyan insanların iradəsi ilə baş verə bilər . Bilirik ki : canın qisası can , gözün qisası göz , burununku burun , qulağınkı qulaq , dişinki diş və yaralarınkı yaralardır . Lakin hər kəs qisası bağışlarsa bu bir kəffarədir , yəni*

*Gözəl Allah onun günahlarının üstünü örtüb*

*onu bağışlayır .*

*"Hərə öz taleyini özü müəyyənləşdirir" - deyəndə də, istiqamət verilir. Yenilməz qüvvət sahibi olan Allahın qəzəbini , lütfünü , mərhəmətini əvəzsiz bilməliyik !! O halda ki , Rəbbimizin Lövhi məhfuz yazıları qarşısında*

*acizik və üzərimizə düşən vəzifə borcumuz nədir _ onu Qurandan öyrəniriksə , burda unutmamalıyıq : qarşımıza çıxan sınaqlarda Allahımızın razılığını qazanmaq üçün İslam dinini yaşayarıqsa gələcəkdə Cənnət qapılarından keçə bilərik --- ` Vaxtıdı, bax :*

*` 9 / 120 ; ` 21 / 10 ; Oxudunmu ?? Bunları da -*

*`21/ 35 ; ` 6 / 165 ; ` 45 / 21 ; ` 10 / 62 – 70 ; ...*

*4 / 135*

*Hisslərimizi təmiz fikirlərlə paklamağa çalışaraq onu yaddan çıxartmamalıyıq ki , yalnız və yalnız bizim ALLAHIMIZ -- ƏSMAYİ HÜSNADAKI ADLARIYLA ÇAĞI – RIB DUA ETDİYİMİZ PAKLIQDA TƏKDİR .*

*4. Axtardığın nədir ? Nəyə əsaslandığın halda özünü yaxşı hiss edirsən? ~ Həyatda illərlə özünü axtaran adamların anlayacağı bir şey var : kimliyindən asılı olmayaraq dünyada olan yaranmışların hər biri düçar olduqları çətinliklər qarşısında çabalayırkən özlərində də səhv axtarmağı ilə yanaşı , bütün baş verənlərin təkcə bilinən deyil , bilinməyən çəpərləri olduğunu da anlasınlar . Burada yenə də , hər birimiz üçün vacib*

olan "La İlahə İllƏllah"ı anlayaraq , ona müxalif çıxmadan yaşamaqla əbədi bəxtəvər olacağıq . İLAH NƏ DEMƏKDİR - bunu Allahın adlarının mənalarına baxıb öyrənməklə bilək ki , küfrə , şirkə də düşməyək . Xatırlamaq istəyirəm – Quranın ayələrində bildirilən - lərin biri də budur ki , insana yetən yaxşılıq da , pislik də Allahdandır , pisliyə bulaşanlar isə özləri səbəb - kardırlar . Bizlərə Allahın lütfü yetişdikdə , gözəl sürprizlərlə qarşılaşdıqda ciyər dolusu nəfəs , ürək açılması , qırışın açılması və s . adlanan duyumlar şükürlə tamamlanan hallarda digəri - gözlənilməz və sıxıntılarla dolu olan hadisələrə reaksiya verəcəyimiz duyumların da üzücü olmayan , səbr diləyən , sevgi bildirən və s . kimi əsasına gəlir . Üzücü olmayan deməklə Allahın buyurduğunu " Hər çətinlikdən sonra bir asanlıq gəlir " , " Hər qaranlıq gecənin işıqlı bir sabahı var " - xatırladım . Yəni Quranda "cəza" sözü 117 - dəfə ," Bağışlamaq" sözü isə 2 *117=234 - dəfə, pislər ( Fuccar) 3 - dəfə, "Yaxşılar"(Əbrar) 6 – dəfə təkrarlanır , "yay - isti" kəlmələri ilə "Qış - soyuq" kəlmələrinin işlənmə sayları eynidir -5- dəfə . " Dünya

*"115- dəfə, " Axirət "115- dəfə . Buradan belə bir nəticəyə gəlirik ki , İstər "Qış" olsun, istər "Yay"- ən çox bağışlayanlar bu dünyada da , o biri dünyada da yaxşılar hesab olunurlar . Allahın lənatinə gəlmişlər olmaqdan çəkinmək və çəkindirmək lazımdır . Hər şeydə bir səhv axtaranlara belə çatdırmaq istəyirəm :*

*" Cənnət " və " Cəhənnəm " kəlmələri də Quranda eyni saydadır -77. Düşünənlər bilir ki , onları seçmək çiyinlərimizdəki mələklərin yazacaqlarının tərəzidəki ağırlığından asılı olacaq .*

*5. Pəncərənin gözlərini nə örtür , külək , yoxsa "yoxsa"lar ? ~ Bilirik ki , pəncərənin gözlərini külək gecikdiyimiz vaxtlarda və diqqətsiz olduğumuz hallarda örtə bilər . " Yoxsa " lar isə bunlardır : Daima qaynayıb yeniləşən həyatda vəziyyət çətinləşərkən ruh düşkünlüyü baş verə bilir . Amma bunun baş verməməsi də , özümüzdən də asılıdır . Vacib olan nüansa toxunaraq bunu da bildirim ki , tək Allaha sitayiş edənlər , yəni Allahdan başqa tanrı , ilah qə - bul etməyənlər hər zaman xoşbəxt olur , xoşbəxtliyin*

*açarını itirmirlər . Bəxtəvərliyi daim yaşadan isə , edilən saleh olan əməllərdir . Quranda bu da bildirilib ki, nəinki pis əməl törətmək, həmçinin, pis fikirlər düşünmək də günahdır . Ürəyi - mizdə pis fikirli arzular oyadan şeytana uymağı zənnə qapıldıqda , şeytanın əməlinə düşməyi isə bir şeyi ifrata çatdırdıqda eləmiş oluruq ki , belə seçilməməyə çalışmalıyıq ~ Quran , 10 / 36 ; 18 / 28 :*

*6. Çox yüksəkdə yerləşən pəncərə ilə aşağıda yerləşən pəncərələrin göstərmə imkanlarının hansı nə verir ~*

*Birincisi , yaxşıya çatmağa çalışan hər kim olursa olsun , o adam öz niyyətinin saflığını qorumalıdır ; ikinci isə , bilirik ki , Dünya nemətlərinə görə bu saflığı özünə unutdurmamağa çalışırmış kimi diqqətlərin yayınmasına yol salanlar da az deyildir . Bunlar məlumdursa , hər hansı yüksəklikdə və aşağı mərtəbələrdə də , yaxşı təəssüratlı olmaq üçün əvvəlcədən özünü birincidə olan cənnət sərinliyi ilə*

*ikincidə " pəncərəyə düzgün yanaşmağı unutduran səhlənkarlıq " qarşısında qoy . Səhvlərini görə - görə onu örtmək istəyən adam genişlik axtarmasın . Çünki , bu adamlar öz dünyalarını özləri daraldır və söz düzgünlüyə çatan məqamda isə kimisə qurban vermək istəyirlər .*

*7. Nə verib - aldığını bilən, pəncərənin qarşısında nəfəs aldığı vaxtdadamı zamanı ölçür? ~ Bəli , pəncərədən baxarkən feyziyab olan - istər kişi , istər də qadın ( bacardığımız qədər uşaqlara da bunu anlatmalıyıq ) unutmamalıdır ki , görmək lazım olan başqa şeylər də var ( gözləmədiyimiz , hətta adını bilmədiyimiz olacaqlar ) . Əgər nə verib - aldığını bilən adamlardan söhbət gedirsə , başa düşüləcək iki qrup var . Bunlardan halallığı sevənlər haqqında da , harama əl ataraq öz movqeyini güdənlər haqqında eyni söz söyləmək olar : " çalışırlar " və onlar heç nə itirmək istəmirlər . Vaxtı da hərəsi öz mövqeyi baxımından qiymətləndirir . Bu yaratmaq istəyənlərin fikirlərini oxusaq ayrı - ayrı sözlər söyləyərik . Halallıqla nə alıb*

*- verdiyini bilən , vaxtını feyziyablıqla şükürlər içində keçirər ( əslində , o , Allahın verdiyi gözəllikdən nurları seyr edər) . Haram hesab etdiklərimiz isə , özündə zəiflik olan hər hansı bir insanı toruna saldığı vaxtı udmaq naminə __ fürsətin əldən verilməməsi istiqamətiylə __ yeni vaxtın əvəzə gəlməsindən xoşlanmaz . (`Beləları üçün axar - baxarı olan məskən mövcud olsa da , orada yaşamaq əməlləri ilə harama dönür`) 1- cinin , hətta , vaxt məhdudiyyətində nəfəs alarkən rahatlığı ilə bundan xoşlanacağı , 2- cininsə narahatlığı ilə çox şeyi itirəcəyini belə bir naxış kimi alındıraq : ` bu kitabın alt cildində verilib .*

*8. Xoşbəxtliyi gözəl quruluşlu , yoxsa gözəl quruluşa açılan pəncərədən baxsan taparsan ? ~ Xoş olaraq sevilən özünə bənzərini tapır , onlar birlikdə cüt yarandığı üçün hər bir şey kimi Yaradana borclu - durlar . Qurani Kərimdə “ Zariyat” surəsinin 49- cu ayəsində deyildiyi kimi hər şey cüt-cüt yaradılıb . Bunu bitkilərin bəzilərində erkək və dişilik öz xislətlərində*

*cəm almması , zərrələrin mənfi və müsbətə bölünməsi , elektrik cərəyanının da , müsbət və mənfiyə bölün – məsi , ikiqütblü maqnit qüvvəsinin mövcudluğu və sair kimi misallardan dərk etməliyik . Quranda “ Qadın” və “ Kişi ” kəlmələrinin eyni sayda olmasına rəğmən bu _ 23 ədədi insan embrionunun meydana gəlməsi pro – sesində yumurta və spermadan gələn xromosomların sayıdır . 23+23= 46 olan xromosom döllənmə olaraq yeni insan bədəninin təməlini qoyur . Baxacağımız bunlar isə : “ şeytan “- 88 dəfə , “ Mələk “- 88 dəfə ; ” İman “- 25 dəfə, “ küfr “- 25 dəfə ; “ Zəkat “- 32 dəfə , “Bərəkət “- 32 dəfə ; “ şərab “- 6 dəfə, “ sərxoşluq ” - 6 dəfə ; “fikirləşmək”- 49 dəfə , “ Nur “ - 49 dəfə ; “Dil”- 25 dəfə, “Vəəz “ - 25 dəfə; “ Fayda” - 50 dəfə , “Pozmaq” - 50 dəfə ; “Sevgi “ - 83 dəfə, “ İtaət” - 83 dəfə; “ Dönüş” - 28 dəfə, “ Sonsuz “ - 28 dəfə; “ Müsibət” - 75 dəfə, “Şükür” - 75 dəfə; “Günəş”( Şəms ) - 33 dəfə , “ İşıq “( Nur ) - 33 dəfə ( saymada “nur” kəlməsinin təkcə adlıq halları nəzərə alınıb); “ sıxıntı “ -13 dəfə , “rahatlıq “ -13 dəfə; “ xəyanət” -16 dəfə , “ xəbis “ -16 dəfə ; “ Doğru yola aparan (əlhuda ) -79 dəfə , “ Rəhmət “ -79 dəfə və s .*

*göz qarşısında o zaman baxılır ki , o göz , Allaha inanan , Ona güvənən insanındır !!. Cəhənnəm cəzaları çərçivəsində hər şeyi qavradacaq Allahımımızın bildir - diklərini dərk etmək əvəzinə ciddilikdən çıxanlar özləri ilə qoşa aparacaqları tək bir şeyin __ ` kəfənin*

*labüdlüyünü unutmasınlar*

*QURAN , 9 / 24 .*

*De ki : " Atalarınız , övladlarınız , qardaşlarınız ,*
*həyat yoldaşınız , yaxın qohumlarınız , qazandığınız*
*mallar , kasad olmasından qorxduğunuz ticarət ,*
*xoşunuza gələn məskənlər sizə Allahdan , Elçisindən*
*və Allah yolunda cihad ( fədakarlıq ) etməkdən*
*daha əzizdirsə ,*
*Allahın əmri ( əzabı ) gəlincəyə qədər gözləyin !*
*Allah yoldan çıxan topluluğu*
*doğru yola çatdırmaz ."*

*9. Qışda , yayda pəncərədən baxanlara məsləhətlər . ~*

*" Qışda " və " yayda " pəncərədən baxmağa aman*
*tapdığınız zamanlar ` iman tapmağa da*
` cəhd edin ~ Quran , 25 / 77

*10. İnsan etdiyi işlərdən həmişə duyğulanırsa , onu gördüyü işə təhrik edən hiss hansı çərçivəyə sığır ?*

*~*

*Burada da , çərçivəni baxış nöqtəmizin ölçüsü kimi dəyərləndirməyə çalışaq . Uca Allah buyurur ki , ən böyük cihad Quranla cihaddır . " Bəs dünyadakı müsəlmanların vəziyyəti nədən başlayaraq , niyə bu qədər acınacaqlı haldadır ? " - sualına ayələr cavab verməkdədir :*

` Quran , 96 / 1 ~

***Allahın İlk Əmri*** *( vəhylə ilk olaraq 5 ayə endirilib , endirilən ilk tam surə isə Fatihə surəsidir )*

**" OXU ! " Olub .** Müsəlmanlar İsə Az Oxuyurlar

*` Ya Da O x u m u r l a r !*

*Özünü hər hansı **firqə**dən , **məzhəb**dən və s . hesab edənlərə **Yaradanımızın münasibəti** :*

**23 / 52 - 54 .................. 6 / 159 ................. 3 / 103 , 105**

**30 / 32 ................. 22 / 78 .................. 5 / 104 ;**

**Yasin surəsinin 69 , 70 – ci ayələrinə baxın ~**

Allah Bu Və Başqa Ayələrdə Açıqlayır Ki , QURAN DİRİLƏR ÜÇÜN ÖYÜD – NƏSİHƏTDİR ; 35 / 22 ~ Buyurur ki , PEYĞƏMBƏR BELƏ QƏBİRLƏRDƏ OLANLARI EŞİTDİRƏ BİLMƏZ ;

---

*30 / 52 , 27 / 80 ~ Şübhəsiz ki , sən nə ölülərə başa sala bilər, nə də dö – nüb gedən “ karlara “* ( haqqa ) ça – *ğırışı eşitdirə bilərsən .*

## Biz isə Quranı ölülər üçün oxuyuruq

*Mən baxışlarımızda da ifrata varmamağı məsləhət gördüyüm məqamı açıqlamalıyam ~ Quranı tilavətlə oxuyun - deyə, buyurur Uca Allah . Tilavət sözünün mənası avazdırsa , digər mənası nurlanıb nurlan – dırmaqdır ))) Heç kimə icazə verilmir ki , Rəbbimizin dediklərini musiqi şəklində oxusun (bu günahdır) - onları aramla , düşünərək oxuyub haqdan agah olaraq başqalarına da çatdırmaq üçün yaymaq* lazımdır

*11. Pəncərədən baxan insanın arzuları ... ~ Bəzən bir - birimizi , olanları arzuladığımız kimi , xəyallar quraraq da ümidlərimizi artırırıq . Bizim köksümüzü açıb genisləndirən Allahımızın bildirdiklərinə isə hə - mişə möhtacıq :* ... 20 / 131 ........ 18 / 7 ........ 16 / 13 ...

*Allahdan ümid alanlar xəyallarını elm öyrənməklə daraldır , fəallıqları ilə başqalarına da xeyir verirlər .*

*12. Pəncərəni örtən pərdə küləkdən yellənərkən ...*

*( Külək yellətsin , təki lənətlənmişlər yellətməsin) ~ Riyasət , səltənət , hökmranlıq şeytanın ən xətərli qılıncıdır . Hz . Muhamməd _ Allahın salamı olsun _ də buyurub : " Allah örtüyü olan şəxsləri Öz mərhəmət və lütfündə qərar verir " . Ən yaxşı libas isə təqva libası sayılır . Diqqət etməli olduğumuzla yanaşı bilirik ki , insan şüurunun yaxşı ilə pisə fərq qoymaq , ziyanlı olan haramı vaciblə qarışdırmamaq qabiliyyəti onu digər canlılardan fərqləndirir . Qurani - Kərimdə Ənkəbut surəsinin 41-ci ayəsində belə buyurulub : "Al - lahdan sonra özünə dostlar edənlər özünə yuva qurmuş hörümçəyə bənzəyirlər . Evlərin ən zəifi isə şübhəsiz ki , hörümçək yuvasıdır .* ***Kaş biləydilər !***

*( Hörümçək toru möhkəm olmayıb , adicə bir yel nəticəsində dağıldığı kimi , onların bu dostluqlarının da heç bir etibarı yoxdur. Bərk ayaqda onları qoyub qaçarlar ) . " Bildiklərimizdən biri də bu olmalıdır ki , yalan məbudların da sütunları hörümçək evinin sü – tunları kimi zəifdir ! Alimlər təstiq etmişlər ki , o yuva yalnız dişi hörümçək tərəfindən hörülür . Odla su ara – sında qalıb əmələ gətirməyə çalışdığımız deyil bu . Yəni , qurulan evlərə əsas olanlardan heç biri şey – tanın silahına çevrilməməli və digər tərəfləri Allaha pənah aparmağa həvəsləndirən olub özünü və ətrafdakıları günahlara tərəf yuvarlatmamalıdır .*

*13. Pəncərə tam qapalıdırsa ? ~ Aydın olmuşdur ki , beyin işığa olduğu kimi , səsə də qapalıdır - səsi və işığı kecirmir . Ətraf nə qədər gurultulu olsa da , beyi – nin içi tamamilə səssizdir. Buna baxmayaraq ən dəqiq səslər beyində hiss edilir. Beyinin içində qavramaq qabiliyyətli olan şüur , Allahdan olan ruhla qidalanaraq yoldan çıxaracaq hər şeyi kənar etməklə*

*özünü pisliyə bulaşdırmamalıdır . Allahın düz yola hidayət etdiyi ( layiq olan) şəxs dünyasındakı gözəlliyi yaşatmaq üçün ömrünü Allaha ibadət - itaətlə acizlik göstərmədən keçirməyə cəhd edir və düz yolla öz nurunu qorumuş olur . Deməli , Allahın yaratdığı beyin qapalı forma mövcudluğunda yerləşmişdirsə də , bu beyinə sahib olan insan özünü qapalı vəziyyətə salmayaraq müdafiə oluna bilər və burada , Allahın qoyduğu qanunların hər bir çirkabdan uzaq olan əməllərə aparan nur kimi gözəlliyi də bəllidir .*

*14. Pəncərəyə qoyulmuş dibçək , ya pəncərəyə tərəf*

*boylanan ağac budağı məst edicidir ? ~*

*Cənnətdəki əbədi keyfə , cəhənnəmdəki əbədi*

*( Qurana əsasən orada bir az yanıb çıxmaq yoxdur )*

*əzablara aparacaq yol düşüb çıxdığımız yolu*

*tərənnüm etmir . Yol yolçunun üz tutduğu məkana*

*çata biləcəyi ölçüdürsə ,*

***nura çatdıran yol zülmətləri belə yarıb***

***işıqlı edə bilir ****

*Təbiət zərrəcikdən nəhəngə qədər gözəllikləri , sirləri və qəribəlikləriylədirsə , onun sirrini aça bilmək üçün atdığımız hər addımda biz, əsrarəngsizliyi duyacağıq .*

*15. Pəncərəni açan kimi nəfəs genişlənirsə , duyduğumuz nə ?* ~ \` 6 / 125 ~

*Allah kimi düz yola hidayət etmək istəsə ,*
*Onun sinəsini İslam ( dini ) üçün açıb genişləndirər ,*
*kimi ( etdiyi pis əməllərə görə ) azdırmaq istəsə ,*
*onun sinəsini elə daraldıb sıxıntıya salar ki ,*
*sanki göyə qalxır .*
*Allah iman gətirməyənlərin üstünə* belə *pislik verir !*

*Doğru yolu seçməyən insanların həyatındakı sıxıntılar _ çətinliklər yaradan fəlakətli əziyyətin nəticəsidir . Fəlakətli əziyyət batilə uyanların düşdüyü çuxurdur . Aktivliyi artıran hidayətin çöhrəsi – xoşbəxtlik isə , Allahın dininə uyduqca gülümsəyir .*

*Ç ü n k i ,* Din _

Həyat Tərzidir və əlbəttə ki , Yaradanımız yara - dılanlara nə lazımdırsa onu hamıdan yaxşı bilir

*16. Səma aydın görünəndə pəncərədən baxan insanın diləkləri necə artar ? ~*

Sən də bunlara çatasan , amin `

*Quran ~ 5 / 56 ; 5 / 16 ; 6 / 162 :*

*17. Pəncərəni açan oğrudursa ... ~ Başqalarının zəhməti ilə dolanan , öz yamanlığı ilə nəsə ələ keçirmək istəyənlərdən həzər !*

*18 . İki qatlı pəncərənin dəyəri , bir qat olan pəncərənin əyəri ~ Lut _ Allahın salamı olsun _ dövründə baş verən yer qabığının çatlayıb çökməsi , həmin qabığın altında yatan vulkanlara yol açan zəlzələ və vulkan partlayışı alimlərin arxeoloji qazıntı vasitəsi ilə aşkara çıxarda bildiklərinə aiddir. Bu qövmün tayfası azğınlıqla - homoseksuallıqla məşğul olduqları üçün , Tanrı onları həmən dəhşətli hadisəyə bürüyərək məhv etdi . Onlar iki taylı pəncərə arasındakı hava ilə müqayisə edildikdə belə , öz yararsızlıqları ilə cılızdırlar ( pəncərənin iki tayı arasındakı hava çöldəki ilə içəridəki havanın*

*təmasını çətinləşdirdiyi üçün insanlar onu yararlı hesab edirlər ) . Hicr əhalisi isə , peyğəmbərləri _ Allahın salamı olsun bütün peyğəmbərlərə və hidayətə tabe olanlara _ yalançı adlandırmaqla Allahın möcüzələrindən üz çevirmişlər və Onun əzabından qorunmaq üçün dağları yonub evlər qurmuşdular . Lakin səhər çağı dəhşətli səs altında məhv edildilər - "Hicr" surəsinin 80-84 - cü ayələrində oxunur . ( Örtük əsasını verən bir qat pəncərə də e - malında keyfiyyətin əyərləri olmadıqda zəmanətlidir )*

*19. Pəncərədən içəriyə atılan daş . ~ Bəzən pəncərədən içəriyə atılan daş ifrat doğuran "sevgi laylarından" ibarət olub , az , ya da çox təhlükəli ` təsirlər törədir .*

*20. Pəncərəyə qoyulan nərdivan ( otaqdan çıxmağa köməklik olaraq ) ~ İnsan öz mənliyindəki üzüntü – ləri iradəsiylə qovub , şəxsiyyətini təsdiqləməyə səy gostərməlidir . Yalnız bundan sonra , kömək üçün ona sarı uzanmış əldən tutaraq in şə Allah irəli gedərkən çəkinməz olacaqdır .*

*21. Müxtəlif yaşlarda olan insanlar pəncərəni harda , hara səmt qoyulmuş arzulayırlar ? ~*

*Uşaqlar və yaşlılar hər otaqdan ən maraqlı olana - mənzərələrə açılan pəncərələri arzulaya bilər və bu arzularda da başqa arzuların cəmi xatırlanacaq . Yaş – lılar seyr edərkən küləyi əsdiyində bitkiləri tozlandıra - raq bol bəhrə verməsi , yaxud da , buludları ( ata və ana timsalında ) bir - biri ilə qovuşduraraq yağışın (öz övladları) yağdığını xatıra gətirəcəklər . Ehtimal edi - rəm ki , uşaqlar da , seyrlərində bir çox sirlərin təsiri altında gələcək arzulara qanad açırlar . Küləklərin havada olan su buxarının gözə görünməz zərrəcik - lərini tüstü , qubar, duz , hava və s . kimi zərrəciklərin öz ətrafına toplayıb tərkibləşdirə bilməsində rolu var . Baxımlı olan hal , sadaladığımız maddələrsiz buxar zərrəciklərinin bir - biri ilə birləşə bilməməsi - dir . Bu da , sanki , uşaqların keçəcəyi həyat yolla - rında sınaqlardan çıxaraq öz yarısıyla xoşbəxtliyin tamamlanmasına aparan bir bənzərlikdir .*

***22**. Pəncərəni əllərimizlə örtək , yoxsa bunu etmək üçün nədənsə istifadə edək ? ~ Mən həyat yolumda ümidlərimi Allaha bağladıqca müvazinətimi qoruyub saxlaya bilmişəm .*

***Quran , 5 / 68** ~*

*Qurana düzgün əməl etmədikcə , siz ( Allah yanında məqbul , dini baxımdan doğru olan ) heç bir şey üzərində deyilsiniz .*

*23. Çöldə saf hava olduğu halda pəncərəni qapayan kimlərdir ? ~ Yaşamı çətinləşdirərək yalanlarla yaşayıb sevinənlər , "1" ilə "5" qiymətləri arasındakı fərqi duymaq istəməyənlər --- ALLAHI UNUDANLAR )))*

***Yazı , üst qabığın rəsmləri** və **dizayn***
*Nəsirova Sevinc tərəfindən **Allahın lütfü***
***olaraq** işlənilmişdir .*

MÜNDƏRİCAT ~


*PƏNCƏRƏ 1. ------------------------------------ 2*

*PƏNCƏRƏ 2. ------------------------------------ 18*

*PƏNCƏRƏ 3. ------------------------------------ 19*

*PƏNCƏRƏ 4. ------------------------------------ 21*

*PƏNCƏRƏ 5. ------------------------------------ 23*

*PƏNCƏRƏ 6. ------------------------------------ 24*

*PƏNCƏRƏ 7. ------------------------------------ 25*

*PƏNCƏRƏ 8. ------------------------------------ 26*

*PƏNCƏRƏ 9. ------------------------------------ 28*

*PƏNCƏRƏ 10. ----------------------------------- 29*

*PƏNCƏRƏ 11, 12. ----------------------------- 31*

*PƏNCƏRƏ 13. ----------------------------------- 32*

*PƏNCƏRƏ 14. ----------------------------------- 33*

*PƏNCƏRƏ 15, ----------------------------------- 34*

*PƏNCƏRƏ 16, 17, 18. ----------------------- 35*

*PƏNCƏRƏ 19, 20. ---------------------------- 36*

*PƏNCƏRƏ 21. ---------------------------------- 37*

*PƏNCƏRƏ 22, 23. ---------------------------- 38*


***Ardı var***

# U N U T M A Y I N !!.

## Q U R A N , 2 / 155 , 156 , 157

Mallarınızdan , canlarınızdan və məhsullarınızdan azaldaraq sizi bir az qorxu və bir az aclıqla bezdirici imtahan edəcəyik,

Səbirli davrananları müjdələ !

**Onlar başlarına bir müsibət gəldiyi zaman " Biz Allaha aidik , biz Onun hüzuruna çıxarılacağıq " - deyərlər .**

Rəblərindən salavat (dəstəklər) və yaxşılıq hey onların üzərinədir ;

Doğru yolu tapanlar da onlardır .

# Ş i r k haqqında ayələrdən

***Quran , 39 / 65 .***

Şübhəsiz ki , Allaha şərik qoşsan bütün əməllərin boşa gedər və mütləq ziyan çəkənlərdən olarsan .

*30 / 40 .* *46 / 5 .*

*39 / 3 .* *30 / 13 .*

*35 / 40 .* *3 / 64 .*

*39 / 13 – 15 .* *13 / 33 .*

*27 / 59 – 65 .* *7 / 194 .*

*16 / 20 – 21 .*

*19 / 81 – 82 .*

*39 / 19 , 44 .*

**QURAN , 63 / 9 .**

**Ey iman gətirənlər !**
*Nə mal – dövlətiniz ,*
*nə də oğul – uşağınız*
*sizi Allahın zikrindən*
*( Quranla*
*yaşamaqdan )*
*yayındırmasın !*

Hər kəs bunu etsə ,
*belələri əsl ziyana uğrayanlardır*

O X U və D Ü Ş Ü N ! !

**` Quran , 53 / 29 .**

**47 / 1, 2 .**

**8 / 28, 29 .**

# Quran , 4 / 17

Allah yanında yalnız o kəslərin
tövbəsi qəbul olunar ki , onlar
nadanlıq ucundan pis bir iş gördükdən sonra
dərhal tövbə edərlər .

Allah belələrinin tövbəsini qəbul edir ~
Həqiqətən , Allah ( hər şeyi ) biləndir , hikmət
sahibidir .

3 / 185, 186

4 / 94.

# Quran, 99 / 7, 8.

2 / 174

103 / 1 - 3

79 / 40, 41

# İNSANLARIN ƏSL PROBLEMİ -

“ Allah vardır “ - deyib ,

yoxmuş kimi davrandıqları ,

“ Quran - Allahın Kitabıdır “ - deyib ,

` ondan xəbərdar olmadıqlarıdır .

Quran , 13 / 11 .

Hər hansı bir tayfa ( insan ) oz nəfsində olanları ( öz tövrünü ) dəyişmək istəmədikcə , Allah da onlarda olanları ( onların halını ) dəyişməz `

O x u  və  D ü ş ü n  ~

**Tur surəsi , 21- ci ayə ,**

**Bəqərə surəsi , 272 – ci ayə ,**

**Nəcm surəsi , 39 – 41 ayələr ,**

- ***114 surə , 6236 ayə .***


Ey insanlar!
Allah'a
muhtaç olan
sizsiniz
FATIR - 15

*İN şə ALLAH*




**Peyğəmbərlərin və başqa əxlaq sahiblərinin etdikləri ~ bizə *Quranda nümunə olaraq göstərilən *duaları hamımız əzbərləyək və sürəkli edək ,**

**amin `**



Dost Olarak
(Nisa-45)
Şâhit Olarak
(Nisa-79)
Vekil Olarak
(Nisa-132)
Koruyucu Olarak
( Bakara - 38, 62 )
Yardımcı Olarak
( Furkan - 31 )
Hesap Görücü Olarak
(Enbiya-47)
ALLAH
YETER

ÖZÜNÜ
HAQQ İLƏ
MƏŞĞUL
ETMƏZSƏN,
BATİL SƏNİ
İŞĞAL
EDƏR




“ Biz Allah’a tutunmayı unutunca,
tutunduğumuz her şey başımıza belâ oldu. „

Nureddin Yıldız


بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ
"Eğer yeryüzündekilerin çoğuna uyarsan seni Allah yolundan saptırırlar. Onlar ancak zanna uyuyorlar ve onlar sadece yalan uyduruyorlar."
( En'am / 116 )


MÜSLÜMAN
Adetlere göre değil,
AYETLERE göre yaşayan insandır.!


ŞÜPHESİZ BU KUR'AN, SANA VE KAVMİNE
BİR ÖĞÜT VE BİR ŞEREFTİR,
ONDAN HESABA ÇEKİLECEKSİNİZ.
ZUHRUF SURESİ 44
BU YÜZDEN
A N L A Y A R A K
OKU

